*XX əsrin bəlası – Deportasiya*

*Qərbi Azərbaycan ziyalıları*

# Gənc nəslə örnək ömür yolu



**Bütöv şəxsiyyət olmaq xoşbəxtliyi hər kəsə nəsib olmur. Belə insanların sözündə, əməlində səmimilik, ətrafdakılara qayğı, həssas münasibət, mübarizlik, yenilik, quruculuq axtarışları daha çox hiss edilir. Əsl zəhmət adamının ömür yolu çətin, lakin şərəfli olur. Həyatının ən gözəl dönəmlərindən keçən və elmi ictimaiyyət arasında adı hörmətlə çəkilən belə ziyalılardan biri də Cəfər Mehdi oğlu Vəlibəyov olub. Onun həyatında türkün müqəddəs ruhu, cahanşümul ideyalar, ömür nizamına vermək istədiyi məqsəd və məram cəmlənmişdi. O, belə qənaətə gəlmişdi ki, qədim İrəvan şəhəri, onun yaxınlığındakı Göyçə gölü türkün bu günü və gələcəyi üçün birlik və dayanıqlılıq simvoludur.**

Ensiklopedik biliyə malik olan, Qərbi azərbaycanlıların gözündə pillə-pillə ucalan, onların ümid çırağına çevrilən Cəfər Vəlibəyov uzun illər "Sovet Ermənistanı" qəzetinin baş redaktoru olmuş, mənalı ömrünü jurnalistikanın inkişafına həsr etmiş, qəzetin kəsərli ideya silahına çevrilməsində peşəkarlıq göstərmişdir...

Cəfər Vəlibəyov 1907-ci ildə Qərbi Azərbaycanın Əştərək rayonunun Əkərək kəndində dünyaya göz açmışdır. Vəlibəyovlar tayfası keçmişin ən ağır illərində beş ilə yaxın faşist xislətli erməni daşnakları ilə vuruşmuş, itkilər vermiş, dağlara çəkilərək çətin gün-güzəran keçirsə də doğma yurddan uzaqlaşmamışdı.

Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra haylar Vəlibəyovlar nəslinə məxsus olan var-dövlət və əmlakı müsadirə etmiş, onlar ailəlikcə Azərbaycan, Rusiya, Türkiyə və İrana köçməyə məcbur olmuşlar. Belə bir şəraitdə valideynlərini erkən itirən Cəfər Vəlibəyov əmək fəaliyyətinə 13 yaşında başlamış, İrəvan Pambıqtəmizləmə zavodunda fəhlə işləmiş, erkən yaşlarından bir parça çörək pulu qazanmaq üçün əlləri qabar olmuş, ağrıdan gecələr yuxusu ərşə çəkilmişdi.

Bir müddət keçdikdən sonra onu zavodun fəhlə komitəsinin sədri seçirlər. Hər addımda Cəfər erməni xəyanətini hiss edir, bilirdi ki, onlar imkan düşəndə türklərə arxadan zərbə vuracaqlar. 1929-cu ildə bilik və bacarığı nəzərə alınaraq Cəfər Vəlibəyov C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrının direktoru vəzifəsinə təyin olunub və istehsalatdan ayrılmadan öz təhsilini davam etdirirdi.

C.Vəlibəyov teatrın direktoru işlədiyi dövrdə gənc maestro Niyazini Yerevana dəvət etdi və o bir müddət İrəvan Azərbaycan Dövlət Teatrında fəaliyyət göstərdi. C.Vəlibəyov sonralar Azərbaycanın Xalq artisti olmuş Əli Zeynalovu və rejissor rəssam C.Kələntərlini də İrəvan teatrına dəvət etmişdir.

1932-ci ildə Cəfər Vəlibəyov Göyçə mahalında Basarkeçər rayon komsomol komitəsinin katibi vəzifəsinə göndərildi. O, işlədiyi müddətdə Azərbaycan kəndlərindəki gənclərlə maraqlı görüşlər keçirir, saz-söz məclislərinə dəvət olunurdu. Dədə Ələsgərin yaradıcılığına böyük maraq göstərirdi. Bir müddət keçdikdən sonra C.Vəlibəyov rayon qəzetində məsul katib vəzifəsində çalışaraq qəzetdə ədəbiyyat səhifəsinin verilməsinə yaxından diqqət yetirirdi.

1936-cı ildə C.Vəlibəyov Amasiya rayon qəzetinin redaktoru vəzifəsinə təyin olundu, daha sonra isə Amasiya rayon partiya komitəsinin katibi vəzifəsinə yüksəldi.

O, 1938-ci ildə "Sovet Ermənistanı" qəzetinin baş redaktoru kimi jurnalistlik fəaliyyətini davam etdirdi. Cəfər Vəlibəyovun dövründə qəzetə gənc kadrlar dəvət olundu, mütəmadi olaraq mətbuatda oçerk, reportaj, felyeton, müsahibə və digər janrlardan olan yazılar dərc olunurdu.

İşgüzar insan olan C.Vəlibəyov 1947-ci ildə Qarabağlar rayon partiya komitəsinin birinci katibi seçildi və iki il bu vəzifədə çalışdıqdan sonra 1949-cu ildə yenidən "Sovet Ermənistanı" qəzetinin baş redaktoru təyin olundu və 1961-ci ilə qədər həmin vəzifədə çalışdı.

"Malaya Sovetskaya Ensiklopediya"da yazılmışdır ki, Cəfər Vəlibəyov sovetlər dövründə yeganə şəxsdir ki, 21 ilə yaxın partiya orqanı olan respublika qəzetinə başçılıq etmişdir. Onun rəhbərlik etdiyi qəzetdə Ermənistanda yaşayan azərbaycanlıların həyatı, ümumiyyətlə, respublikada baş verən hadisələr obyektiv şəkildə öz əksini tapmışdır.

Cəfər Vəlibəyov redaktor işlədiyi dövrdə tez-tez İrəvanda və rayonlarda olan Azərbaycan orta məktəblərində olur, istedadlı və bacarıqlı gənclərlə yaxından maraqlanır və onlara tövsiyə edirdi ki, həmişə elmə, təhsilə böyük maraq göstərsinlər, harada çalışmalarından asılı olmayaraq Qərbi azərbaycanlıların başını uca etsinlər. Onlara Qərbi Azərbaycan torpağında yetişən elm xadimlərindən Əməkdar Elm xadimi, professor M.Seyidov, fizika-riyaziyyat elmləri doktoru, professor C.Mirzəyev haqqında xoş xatirələr danışardı.

Cəfər Vəlibəyov bir neçə il ardıcıl olaraq İrəvan Kənd Təsərrüfatı Texnikumunda Dövlət İmtahan Komissiyasının sədri olmuşdur. Onun məsləhəti ilə texnikumun bir sıra məzunları elmin zirvələrinə yüksəlmişlər.

C.Vəlibəyov tanınmış dövlət xadimi idi. O, Ermənistan SSR Ali Sovetinin (III-VI çağırış) Rəyasət Heyətinin sədr müavini vəzifəsində çalışmışdır.

Görkəmli jurnalist, dövri mətbuata sidq-ürəklə bağlanan Cəfər Vəlibəyov dəfələrlə Ermənistan SSR Ali Sovetinə deputat seçilmişdir. O, İrəvanda yaşayan azərbaycanlılar arasında ən nüfuzlu ziyalılardan biri idi.

O, Ermənistanın Əməkdar jurnalisti fəxri adına layiq görülmüş, bir sıra medallarla, Ermənistan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Cəfər Vəlibəyov təkrarolunmaz bir insan idi. İrəvanlı olması ilə fəxr edirdi. Onun mərdliyinə, bütün həyatını jurnalistlik peşəsinə həsr etmək əqidəsinə, sözün həqiqi mənasında xalqa xidmət etmək idealına, peşə məhəbbətinə heyran qalırsan.

Cəfər müəllim el gözündə ucalaraq yaşadı, həyatının sonuna kimi peşəsinin vurğunu oldu, əlindən qələmi düşmədi...

**Qədir ASLAN,**
**"Respublika".**